# THE PROBLEM OF INCULCATING NATIONAL AND HUMAN VALUES IN PRIMARY SCHOOL STUDENTS IN SCIENTIFIC AND METHODOLOGICAL LITERATURE

**Sayyara Jafarova**

Doctoral student in the Doctor of Philosophy program at the Institute of Education of the Republic of Azerbaijan
E-mail: seyyare.ceferova@bk.ru
https://orcid.org/0000-0002-7765-9378

**Abstract.** The main objective of the research is to enhance the opportunities for the upbringing of young schoolchildren based on national and human values in the modern educational process, as well as to identify and investigate methods that contribute to their successful upbringing in the national spirit. It is noted that approaches to the upbringing of young schoolchildren in the national and human spirit have been explored in existing scientific and pedagogical literature, and their upbringing based on national and human values has been analyzed as a pedagogical problem. The role of humanitarian subject teaching in the educational process, which has a greater impact on the upbringing of the growing generation in this direction, has been highlighted. The research also examines historical and theoretical facts. Although not comprehensively, the research has analyzed sciences focused on the study of personality (pedagogy, philosophy, psychology, sociology, etc.) and provided information about their influential role in the upbringing of students based on national and human values.

**Keywords:** primary education level, young schoolchildren, national-moral values, human values, folklore samples, teaching, education.

**DOI:** 10.30546/2709-2488.4.2024.026
**To cite this article:** Jafarova S. (2024). The problem of inculcating national and human values in primary school students in scientific and methodological literature. *Journal of Preschool and Primary Education*, Vol. 249, Issue IV, pp. 79-88.
**Article history:** received – 01.11.2024; accepted – 28.11.2024.

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNƏ MİLLİ VƏ BƏŞƏRİ DƏYƏRLƏRİN AŞILANMASI PROBLEMİNİN ELMİ-METODİK ƏDƏBİYYATDA QOYULUŞU

**Səyyarə Cəfərova**

ARTİ-nin fəlsəfə doktoru proqramı üzrə doktorantı
E-mail: seyyare.ceferova@bk.ru
https://orcid.org/0000-0002-7765-9378

**Annotasiya.** Tədqiqatın əsas məqsədi müasir dövrdə təlim prosesində kiçik yaşlı məktəblilərin milli və bəşəri dəyərlər əsasında tərbiyə olunma imkanlarının yüksəldilməsinə, eləcə də onların milli ruhda tərbiyəsinin uğurla reallaşdırılmasına xidmət göstərəcək metodların aşkar olunaraq tədqiq edilməsidir. Belə ki, kiçik yaşlı məktəblilərin milli və bəşəri ruhda tərbiyə edilməsinə dair yanaşmalar mövcud elmi-pedaqoji ədəbiyyatda araşdırılmış, onların milli və bəşəri dəyərlər əsasında tərbiyə edilməsi pedaqoji problem kimi təhlil olunmuşdur. Böyüməkdə olan nəslin bu yöndə tərbiyə olunmasında daha çox təsir gücünə malik olan pedaqoji prosesdə hümanitar fənn tədrisinin rolu işıqlandırılmışdır. Tədqiqat işində, həmçinin tarixi və nəzəri faktlar araşdırılmışdır. Aparılan araşdırmada şəxsiyyətin öyrənilməsinə yönəlmiş elmlər (pedoqogika, fəlsəfə, psixologiya, sosiologiya və s.) üzərində əhatəli şəkildə olmasa da, müəyyən qədər təhlillər aparılmış, onların təhsilalanların milli və bəşəri dəyərlər əsasında tərbiyəsindəki təsiredici rolu barədə məlumat verilmişdir.

**Açar sözlər:** ibtidai təhsil pilləsi, kiçik yaşlı məktəblilər, milli-mənəvi dəyərlər, bəşəri dəyərlər, folklor nümunələri, təlim, tədris.

**DOI:** 10.30546/2709-2488.4.2024.026
**Məqaləyə istinad:** Cəfərova S. (2024). İbtidai sinif şagirdlərinə milli və bəşəri dəyərlərin aşılanması probleminin elmi-metodik ədəbiyyatda qoyuluşu. «*Məktəbəqədər və ibtidai təhsil*», № 4 (249), səh. 79-88.
**Məqalə tarixçəsi:** göndərilib – 01.11.2024; qəbul edilib – 28.11.2024.

## Giriş / Introduction

Fəlsəfi, pedaqoji ədəbiyyatda əxlaqın mənşəyi haqqında müxtəlif fikirlər mövcuddur. İnsan ictimai varlıqdır, onun fəaliyyəti də ictimai mühitlə, ictimai qaydalarla təyin edilir. İctimai varlıq olan insanın əxlaqı öz başlanğıcını həyatdan alır, deməli, əxlaq ictimaidir.

Bir qrup alimlərin fikrincə, insan hər şeydən əvvəl canlı varlıq, canlı orqanizmdir, onun yaşayış tərzi canlı təbiət qanunları əsasında baş verir. İnsan da digər canlılar kimi doğulur, mübarizə aparır və ölür. İctimai mühit yalnız insan nəslinin yaşaması, artıb-törəməsi üçün şəraitin olması ilə kifayətlənmir, bioloji prosesin baş verməsinə mane olmur, əksinə, özü bioloji prosesin fəaliyyət göstərməsini təsdiq edir. Ona görə də əxlaqın mənşəyini, yalnız insanlarda deyil, bəşər cəmiyyətindən daha qədim olan həyatın özündə axtarmaq lazımdır. Bu nəzəriyyənin tərəfdarları zoopsixologiya elminin yaranmasını zəruri sayır, heyvanlarda da davranış qaydalarının normalara müvafiq olmasını təsdiq etməyə çalışır [Qasımova, L., Mahmudova, R., 2012].

Mənəvi tərbiyənin mühüm tərkib hissələrindən biri milli mənlik şüurunun formalaşdırılmasıdır. XX əsrin sonlarından başlayaraq demokratiyanın təsiri ilə ayrı-ayrı xalqlar kimi Azərbaycan xalqı da öz kökünə, tarixinin açılmamış səhifələrinə müraciət edərək xalqın tarixi köklərini, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini öyrənir, milli özünüdərkin, milli özünütəsdiqin, milli özünəməxsusluğun bütün əlamətlərini aşkar etməyə çalışır. Milli rəmzlərə, adət-ənənələrə yeni həyat verilir, dini etiqadlar, müqəddəs bayramlar xalqın özünə qaytarılır. Bu qayıdışda yeni bir ruh, yeni təfəkkür, yeni mənəviyyat öz əksini tapır. Milli həyatın emosional, psixoloji və mənəvi tərəfləri daha da zənginləşir. Bu, çox mürəkkəb, gərgin mübarizələrlə zəngin və göz yaşları ilə dolu olan özünə, öz kökünə qayıdış, dirçəliş prosesi məktəblilərin, yeniyetmə gənclərin gözləri qarşısında və onların fəal iştirakı zəminində baş verir. Hər bir ləyaqətli, dəyanətli, vətənpərvər gənc özünün əməli fəaliyyəti, təlimə münasibəti ilə, millətin adı və varlığı ilə fəxr edir, milli xarakter, milli psixologiya və milli mənəviyyatın qol-qanad açmasına şərait yaradır.

Milli mənlik şüuru hər bir millətin varlığının, milli özünüidarə və özünütəsdiqinin, milli ləyaqət və ümumbəşəri keyfiyyətlərinin məcmusudur. Milli mənlik şüurunun komponentlərinə millətin adı, varlığı, dili, dini, xarakteri, adət və ənənələri, psixologiyası, mənəviyyatı, mədəniyyəti və s. sahələr daxildir. Bu komponentlərin məktəblilərin mənəvi şüur və davranışında təzahürü milli mənlik şüurunun formalaşması və tərbiyə olunmasıdır. Kiçik yaşlı məktəblilərin formalaşması və tərbiyə olunması həm təlim, həm də sinifdənkənar tədbirlərdə

ictimai faydalı əmək prosesində baş verir.

## Əsas hissə / Main part

Mənəvi tərbiyə insanın özünə, başqalarına (dosta, böyüyə, qadına, kişiyə, başqa xalqlara və s.), əməyə, vətənə, ictimai quruluşa, ictimai-siyasi qrup və təşkilatlara, dövlətə və s. olan münasibətinin şüurlu surətdə formalaşmasıdır. Prof. B.A.Əhmədov və prof. A.Q.Rzayev mənəvi tərbiyəni müəllimin rəhbərliyi altında şagirdin xeyir və şər, yaxşı və pis, ədalətli və ədalətsiz işlərə, hərəkətlərə münasibətlərinin formalaşdırılması və bu münasibətlərə uyğun adətlərin yaradılması prosesi hesab edirlər. Prof. A.N.Abbasov və prof. H.Ə.Əlizadənin fikrincə, "mənəvi tərbiyə, bir tərəfdən, mənəvi şüuru və hissləri, mənəvi təsəvvür və anlayışları, mühakiməni, digər tərəfdən isə mənəvi davranışı formalaşdırır" [Abdinova, S., 2015].

S.P.Baranov və V.A.Slastenin redaktorluğu ilə nəşr olunmuş "Pedaqogika" kitabında "mənəvi tərbiyənin əsas məzmununu sovet vətənpərvərliyi ilə proletar beynəlmiləlçiliyi, əməyə və ictimai mülkiyyətə kommunist münasibəti, kollektivizm, humanizm, mədəni davranışın təşkil etdiyi" göstərilir.

Vətən torpağı naminə mübarizə, xalqımızın mənəvi varlığı və birliyi uğrunda mübarizə qəhrəmanlıq, mərdlik məktəbidir. İnsan ömrünün ən böyük zinyəti və onu yaşadan qüvvə olan vətənpərvəlik hissi gənclərin təlim-təbiyəsinin əsası, düşünən beyni olmalıdır. Bu müqəddəs və ülvi mənəvi hissin tərkib hissəsi hərbi vətənpərvərlikdir.

Böyüməkdə olan nəsil milli ruhda tərbiyə olunmalı, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. "Onlar tariximizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən yeniyetmə vətənpərvər ola bilməz" [Cəbrayılov, İ., 2023].

Mənəvi tərbiyə problemi hər dövr üçün aktual məsələlərdən biri olaraq qalmaqdadır. Müasir Azərbaycan elmində müxtəlif istiqamətlərdə aparılan tədqiqatlar çərçivəsində bu məsələyə dair bir çox dəyərli fikirlər söylənir, konsepsiyalar təqdim edilir.

Böyüməkdə olan nəslin şəxsiyyət kimi formalaşmasının həmin cəmiyyətin əsas vəzifəsi olması, şəxsiyyətin isə ən mühüm keyfiyyətlərindən biri kimi onun mənəviyyatca yetişkən olması, mənəvi təmizlik, əxlaqi paklıq ictimai-sosial həyatda əldə edilən müvəffəqiyyətlərin əsas şərtlərindən biri olması, həyatda dinamik inkişafın tələblərinə cavab vermək üçün uşaqların kiçik yaşlardan intizamlı, vətənpərvər, əxlaqca saf, təmiz, düz əqidəli böyüməsi məsələləri elmi-pedaqoji aspektdə tədqiq edilmişdir.

Kiçik yaşlı məktəblilərin mənəvi mədəniyyətinin formalaşdırılmasının məzmununu, forma və metodlarını tədqiq etmək, bu sahədə sinif müəlliminin səmərəli, səriştəli, peşəkar fəaliyyətini təhlil edib öyrənmək tədqiqatın əsas məqsədi kimi qarşıya qoyulmuşdur. T.H.Hüseynova pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Kiçik yaşlı şagirdlərdə mənəvi mədəniyyətin formalaşması üzrə işin sistemi" mövzusunda təqdim edilmiş dissertasiyasında göstərir ki, təhsilimizin Avropa təhsilinə inteqrasiyası ilə əlaqədar olaraq təhsil sisteminin strukturunda, təhsilin məzmununda, forma və metodlarında qlobal dəyişikliklər baş verməkdədir. Şagirdlərin idraki fəallığının, "yaddaş məktəbi"ndən "təfəkkür və düşüncə məktəbi"nə keçidin təmin olunması məqsədilə sistemli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur; hazırda zamanın tələblərinə uyğun şəkildə ənənəvi iqtisadiyyatdan bilik iqtisadiyyatına keçidin əsası qoyulmalıdır ["Azərbaycan – 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. 29 fevral, 2012-ci il]. Buna görə də bugünkü məktəbli dünənkindən daha bilikli, daha hazırlıqlı, sabahkı bugünkündən daha ağıllı və daha hazırlıqlı olmalıdır. Müasir məktəbli geniş elmi-mədəni dünyagörüşünə malik olmalı, bəşəri və milli-mənəvi dəyərləri mənimsəməli, hər yerdə yüksək mədəni davranış nümayiş etdirməli və daim mənəvi mədəniyyət səviyyəsini artırmalıdır. O, vətənini, xalqını, insanları dərin məhəbbətlə sevməli, xalqın mənəvi dəyərlərinə, o cümlədən dilinə, dininə, bayrağına, himninə, gerbinə, adət və ənənələrinə hörmət etməli və onlara sadiq olmalıdır. Mənəvi mədəniyyət mənəvi tərbiyənin nəticəsi kimi özünü göstərir, mütəmadi olaraq fasiləsiz təkmilləşmə, inkişaf prosesində olmalıdır [Bayramov, Q., 1980]. Qeyd edək ki, prof. S.Quliyev, prof. A.Abbasov, prof. A.Həsənov, prof. O.Həsənli, prof. R.Hüseynzadə yalnız mənəvi mədəniyyətin formalaşdırılması problemlərini araşdırmamış, eyni zamanda mənəvi tərbiyə və əxlaq tərbiyəsi problemlərinin müəyyən sahələrini ətraflı işləmiş, kitablar, elmi məqalələr yazmışlar.

H.Əliyev Azərbaycan dövlətinə rəhbərlik etdiyi illərdə müxtəlif fərman və sərəncamlarla milli adət-ənənəmizin, tariximizin, soykökümüzün, əxlaqi-mənəvi dəyərlərimizin, qədim yazılı abidələrimizin, musiqimizin və s. mənəvi sərvətlərimizin öyrənilməsi və təbliğinə təkan vermiş və 1997-ci ildə "Kitabi – Dədə Qorqud" dastanının 1300 illiyi haqqında fərman ilə "Kitabi – Dədə Qorqud" abidəsinin 1300 illik yubileyinin layiqincə hazırlanması və keçirilməsini bir vəzifə kimi qarşıya qoymuşdur.

Fərmanda "Kitabi – Dədə Qorqud" eposunun dünya mədəniyyəti və ədəbiyyatı tarixində xüsusi yer tutduğu, onun yubileyinin Azərbaycan xalqının, bütün türk xalqlarının qədim və zəngin mədəniyyətinin təbliğinə xidmət edən beynəlxalq əhəmiyyətli hadisə olduğu qeyd edilmişdir. "Kitabi – Dədə Qorqud" hər şeydən öncə türk xalqlarının, o cümlədən Azərbaycan xalqının pedaqoji fikir

tarixində görkəmli yer tutur. Ə.Həşimov dastanı xalqımızın ilk pedaqoji dərsliyi, monumental etnopedaqoji abidəsi adlandırmışdır.

Eposun özündən sonrakı dövrlərdə Azərbaycan pedaqoji fikrinin inkişafına, şifahi xalq ədəbiyyatının genişlənməsinə əhəmiyyətli təsiri olmuşdur. Dastanda insanın fiziki, əqli, mənəvi və estetik cəhətdən formalaşmasına xidmət edən xeyli hikmətamiz öyüd və nəsihətlər öz əksini tapır.

Müasir dövrdə şəxsiyyətin bütövlüyünün hərtərəfliliyini təmin edən vasitələrdən biri kimi sağlam, şəffaf mühitin təşkili və mənəvi təsirlər şəxsiyyətin formalaşmasının əsas şərtidir. Bu mövqedən yanaşaraq tədqiqatçı “Kitabi – Dədə Qorqud” dastanında mənəvi ideyalardan bəhrələnməyin olduqca aktuallıq kəsb etməsini vurğulayır. O, göstərir ki, “Kitabi – Dədə Qorqud” dastanının araşdırılmasının aktuallığını artıran amillərdən biri də eposdakı qəhrəmanlıq, vətənpərvərlik motivlərinin aparıcı istiqamətini təşkil etməsi və bunun müasir dövrdə böyüməkdə olan nəslin mənəvi tərbiyəsi üçün əhəmiyyətli olmasıdır.

Tədqiqatçı M.Q.İsmayılovanın pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyası (13.00.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi) folklor materiallarından istifadənin şagirdlərin mənəvi tərbiyəsi vasitələrindən biri kimi (Şirvan folklor materialları əsasında) mövzusuna həsr edilmişdir. Tədqiqatın obyekti kiçik yaşlı şagirdlərin mənəvi tərbiyə problemi, tədqiqatın predmeti isə onların mənəvi tərbiyəsində folklor nümunələrindən istifadə prosesi olmuşdur.

Tədqiqatçı folklor nümunələrindən istifadə etməklə kiçik yaşlı məktəblilərin mənəvi tərbiyəsinin formalaşdırılması imkanlarının üzə çıxarılmasını, Şirvan regionuna aid folklor nümunələrinin əhəmiyyətini müəyyənləşdirməklə şagird mənəviyyatına təsir dərəcəsini tədqiq etməyi nəzərdə tutmuşdur.

Tədqiqatçı M.Q.İsmayılov göstərir ki, məktəbdə mənəvi tərbiyə bir sıra vasitələrin köməyi ilə həyata keçir, bunların sırasında folklor nümunələrinin özünəməxsus yeri də var. Orta ümumtəhsil məktəblərində tərbiyə prosesi düzgün qurulduqda, şifahi xalq yaradıcılığı materiallarından istifadə etdikdə şagirdlər bizə miras qalan milli dəyərləri dərk edir, bütövlükdə, xalqın taleyinə biganə olmur. Tədqiqatda Şirvan regionuna aid olan şifahi xalq ədəbiyyatı nümunələrinin kiçik yaşlı məktəblilərin mənəviyyatının formalaşmasına və inkişafına mühüm təsir etdiyi göstərilir. Təlim-tərbiyə prosesində region folklor nümunələri əsasında bir sıra fənlərin tədrisi prosesində bu nümunələrin toplanmasına şagirdlərin özlərinin cəlb edilməsi kimi işlər də çox müsbət nəticə verər.

Tələb olunur ki, bugünkü məktəbli dünənkindən daha bilikli, daha hazırlıqlı, sabahkı bugünkündən daha ağıllı və daha hazırlıqlı olsun. Müasir məktəbli geniş elmi-mədəni dünyagörüşünə sahib olmalı, bəşəri və milli-mənəvi dəyərləri mənimsəməli, hər yerdə yüksək mədəni davranış nümayiş etdirməli və daim

mənəvi mədəniyyət səviyyəsini artırmalıdır. O, Vətənini, xalqını, insanları dərin məhəbbətlə sevməli, xalqın mənəvi dəyərlərinə, o cümlədən dilinə, dininə, bayrağına, himninə, gerbinə, adət və ənənələrinə hörmət etməli və onlara sadiq olmalıdır. Mənəvi mədəniyyət mənəvi tərbiyənin nəticəsi kimi özünü göstərir. O, mütəmadi olaraq fasiləsiz təkmilləşmə, inkişaf prosesində olmalıdır. Çünki mənəvi mədəniyyət daha çox insanın əməli, fəaliyyəti, praktik işi ilə bağlıdır. Bu prosesin isə daha çox və ən mühüm iştirakçıları kiçik yaşlı məktəblilərdir" [İsmayılov, R., Orucov, G., Zahid, X., Cəfərova, D., 2016].

**Təhlillərə nəzər salaq:**

- Ədəbiyyatın bir qismi sovet rejimi şəraitində yaradıldığından onun əsas qayəsi kommunist, sovet ideologiyasına xidmət etmək, böyüməkdə olan nəsli "kommunizm qurucusunun "əxlaq kodeksi", "inkişaf etmiş sosializm" cəmiyyəti ideyalarına sadiqlik ruhunda tərbiyə etməyin nəzəriyyə və təcrübəsini ümumiləşdirməkdən ibarət olmuşdur. Bu, XX əsrin 90-cı illərinin əvvəllərinə kimi nəşr olunmuş pedaqoji ədəbiyyatda da öz təsir gücünü saxlamışdır;
- Böyüməkdə olan nəslin milli-mənəvi dəyərlər əsasında tərbiyə edilməsi pedaqoji problem kimi XX əsrin 90-cı illərinin ikinci yarısından sonra irəli sürülmüşdür;
- Problem qismən öyrənilsə də, hələlik kompleks şəklində araşdırılıb ümumiləşdirilməmişdir;
- Problem öyrənilərkən əsas obyekt olaraq orta məktəbin ibtidai təhsil pilləsi və yaxud qismən VIII−X və ya IX−X siniflər götürülmüşdür, ümumi təhsilin orta pilləsi (VI−X siniflər) kompleks şəkildə araşdırılmamışdır.

Bütün bunlar müstəqillik şəraitində ibtidai təhsil pilləsi şagirdlərinin xalqımızın milli- mənəvi dəyərlər əsasında tərbiyə edilməsinin nəzəriyyə və təcrübəsini öyrənib ümumiləşdirməyin zəruriliyini zamanın çox vacib elmi-tədqiqat vəzifələri sırasına çıxarmışdır.

**Tədqiqata dair irəli sürülən təkliflər və yeni yanaşmalar:**

1. Tədqiqatda böyüməkdə olan nəslin milli və ümumbəşəri dəyərlər əsasında tərbiyə olunması probleminə mənəvi mədəniyyət baxımından yanaşılmasına və XXI əsrdə elm və texnikanın nailiyyətlərini nəzərə almaqla şagirdlərin fəallığının artırılmasına nail olmağın məqsədəmüvafiqliyi işıqlandırılır.
2. Ümumtəhsil müəssisələrində şagirdlərin milli və bəşəri dəyərlər əsasında tərbiyə edilməsi üçün bir sıra auditoriyadankənar tədbirlər həyata keçirilməlidir. Məsələn, kollektiv şəkildə ictimai-faydalı əməkdə iştirak etmək, dostluq görüşləri, xalqlar dostluğu gecələrinin təşkili, siyasi məlumatlar, tərbiyəvi mövzuda söhbətlər, müxtəlif xalqların nümayəndələrinin də iştirak etdiyi kinofilmlərə, teatr tamaşalarına getmək, görkəmli şəxsiyyətlərin xatirə

və yubiley gecələrində iştirak etmək, ədəbi-bədii əsərlərin müzakirəsi, tarixi beynəlmiləl abidələrə ekskursiyalar, məktublaşma, tarixi günlərin qeyd edilməsi və s. kimi tədbirlərin həyata keçirilməsi daha səmərəli olardı.

3. Təhsilalanların milli və ümumbəşəri dəyərlər əsasında tərbiyə edilməsi problemini tədqiq etdiyimiz zaman belə bir nəticəyə gəlirik ki, daha çox hümanitar fənn proqramlarında üstünlük verilən milli-ümumbəşəri dəyərlər bu prosesin öhdəsindən layiqincə gələ bilmir. Ona görə də ümumtəhsil müəssisələrində "Milli və ümumbəşəri dəyərlər" mövzusuna dair fənlərin tədris edilməsinin cəmiyyətimizə verəcəyi faydaları düşünərək tətbiq etməyin zəruriliyini və səmərəli nəticə verəcəyini nəzərə almaq lazımdır.
4. Qloballaşma dövrünü informasiyalanmış cəmiyyət kimi səciyyələndirdikdə bu prosesdə xüsusi rolu olan kütləvi informasiya vasitələrinin də şəxsiyyətin formalaşmasına olan təsiri, şübhəsiz, nəzərə alınmalıdır. Kütləvi informasiya vasitələrindən istifadə zamanı təhsilalanların milli və ümumbəşəri dəyərlər əsasında tərbiyə edilməsi istiqamətində olan proqramlara üstünlük verilməsi əlverişli nəticə əldə etmək baxımından yararlı vasitə ola bilər.
5. Şəxsiyyətin qloballaşma dövrünə adaptasiya olunması, yenilikləri gündəlik fəaliyyətində tətbiq etməsi, hər bir yeniliyin müsbət və mənfi təsirlərinə qarşı cəmiyyətin hazırlıq səviyyəsini nizamlayıb doğru yönləndirməkdə ziyalıların öhdəsinə düşən vəzifələr və onların bu sahədəki qabaqcıl fikirləri və təcrübələri ilə vətəndaşlarımızın hər birinin məlumatlandırılmasının verəcəyi səmərənin daha mühüm olacağı qənaətinə gəlirik.

Qeyd etdiyimiz bu nəticələrdən aydın olur ki, təhsilalanların milli və bəşəri dəyərlər əsasında tərbiyə olunması işini həyata keçirmək üçün müxtəlif metod və imkanlar mövcuddur. Bunlar tətbiq edildiyi təqdirdə Azərbaycan cəmiyyətində hərtərəfli formalaşmış şəxsiyyət yetişdirməyə nail olmaq mümkündür.

## Nəticə / Conclusion

Kiçik yaşlı məktəblilərin mənəvi mədəniyyətinin formalaşdırılmasının məzmununu, forma və metodlarını tədqiq etmək, bu sahədə sinif müəlliminin səmərəli, səriştəli, peşəkar fəaliyyətini təhlil edib öyrənmək tədqiqatın əsas məqsədi kimi qarşıya qoyulmuşdur.

-mənəvi mədəniyyətin bir sıra elementlərinin təlim-tərbiyə prosesində təlqin edilməsi şagirdləri mənəvi cəhətdən saflaşdırır. Şagirdlərin mədəniyyət nümunələrilə tanışlığı onların əxlaqının saflaşdırılmasını təmin edir. Əxlaqın

saflaşdırılması isə mənəvi mədəniyyətin formalaşmasına yol açır.

-müasir dövrdə cəmiyyətdə baş verən köklü dəyişikliklər prosesində, ümumtəhsil məktəblərində təlim-tərbiyə sahəsindəki işləri tamamilə yenidən qurmaqla kiçik yaşlı məktəblilərin mənəvi mədəniyyətinin inkişafının formalaşdırılmasını və təkmilləşdirilməsini stimullaşdırmaq mümkündür.

-kiçik yaşlı məktəblilərdə mənəvi mədəniyyətin formalaşdırılmasında respublikanın milli, adət və ənənələrinin özünəməxsus xüsusiyyətlərinin proqram və dərsliklərdə, tədrisdə nəzərə alınması vacibdir.

-kiçik yaşlı məktəblilərdə mənəvi mədəniyyət tərbiyəsi işinə kiçik məktəb yaşı dövründən başlanması vacibdir. Kiçik yaşlı məktəblilərdə mənəvi mədəniyyətin formalaşdırılmasında qabaqcıl məktəb təcrübəsinin diqqətlə öyrənilməsi mühüm əhəmiyyəti kəsb edir və s.

Araşdırdığımız tədqiqatlardan məlum olur ki, müxtəlif yaş dövrlərində mənəvi tərbiyənin formalaşmasının və inkişaf etdirilməsi problemləri tədqiq edilmişdir, bütövlükdə isə müasir cəmiyyətimizdə mənəvi tərbiyə problemlərinin xüsusiyyətləri araşdırılmamışdır.

**Məqalənin aktuallığı.** Mənəvi tərbiyənin sistem şəklində insana təsir göstərməsinə aydınlıq gətirilməsi ilə yanaşı bir məqamı da xüsusi vurğulamaq lazımdır ki, biz Şərq xalqları qrupuna daxil olduğumuz üçün, mənəvi dəyərlər, əxlaqi məsələlər kimi anlayışlar əsrlər boyunca çox ciddi məsələlər olaraq qəbul edilmişdir. Bu sahədə istər şifahi xalq ədəbiyyatında, istər adət-ənənəmizdə, istərsə də etiqad etdiyimiz İslam dinindən kifayət qədər nümunələr göstərmək olar. Milli və bəşəri dəyərlərimizin araşdırılması daim aktual mövzu olduğu üçün müxtəlif dövrlərdə və ayrı-ayrı elm sahələrinin alimləri tərəfindən tədqiq edilmiş və edilməkdədir. Elmi ədəbiyyatda, müasir və klassik əsərlərin tədqiqi bunu göstərir ki, mənəvi tərbiyənin mahiyyətini düzgün dərk etmək üçün əxlaqın necə yarandığını bilmək zəruridir.

**Məqalənin elmi yeniliyi.** Tədqiqat işində ibtidai sinif şagirdlərinə milli və bəşəri dəyərlərin aşılanması probleminin elmi-metodik ədəbiyyatda qoyuluşu haqqında araşdırmaların aparılmasını elmi yenilik kimi qiymətləndirmək olar.

**Məqalənin praktik əhəmiyyəti.** Təklif olunmuş metodlar və metodikanın düzgün tətbiqi ibtidai sinif müəllimlərinin pedaqoji ustalığının artmasında, tərbiyə işinin keyfiyyətinin yüksəlməsində, ibtidai sinif şagirdlərinin doğma Vətənə məhəbbət hissinin formalaşmasında olduqca əhəmiyyətlidir. Tədqiqatın nəticələrindən, eyni zamanda ibtidai təhsil üzrə proqram və dərsliklərin təkmilləşdirilməsində, müvafiq ixtisaslar üzrə kadr hazırlığı işində istifadə etmək mümkündür.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Abdinova, S.Ə. (2015). Şagirdlərin milli qəhrəmanlara məhəbbət ruhunda tərbiyəsi təcrübəsindən. “Məktəbəqədər və ibtidai təhsil”, № 2, s. 64-67.
2. Bayramov, Q.B. (1980). Mənəvi həyatda millilik və beynəlmiləlçilik. Bakı, Gənclik, 52 s.
3. İsmayılov, R., Orucov, G., Zahid, X., Cəfərova, D. (2016). “Azərbaycan dili” (I-IV siniflər üçün dərsliklər). Bakı.
4. Qasımova, L.N., Mahmudova, R.M. (2012). Pedaqogika (dərs vəsaiti). Bakı, Çaşıoğlu.
5. “Azərbaycan – 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası. 29 fevral, 2012-ci il.
6. Cəbrayılov, İ. (2023). Ümumtəhsil məktəblərində tərbiyə işinin təşkili (metodik vəsait). Bakı, CN POLİGRAFİYA, 242 s.